Təsdiq edirəm

ADMİU-nun rektoru

__________Professor Ceyran Mahmudova

"02" "mart" 2026-cı il

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**PUBLİK HÜQUQİ ŞƏXSİ**

# Elmi-pedaqoji təcrübənin təşkili

# QAYDALARI

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının 02 mart 2026-cı il tarixli iclasının 06 №-li protokolu ilə təsdiq edilmişdir.

Bakı – 2026

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Elmi-pedaqoji təcrübənin təşkilinə dair**

# Q A Y D A L A R

## I. Hüquqi sənədlər

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində elmi-pedaqoji təcrübənin təşkilinə dair qaydalar aşağıdakı normativ hüquqi sənədlərə əsasən hazırlanmışdır:

1. 19 iyun 2009-cu il tarixli "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu;
2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2023-ci il tarixli 489 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası";
3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları";
4. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Kollegiyasının 03 sentyabr 2024-cü il tarixli KQ-12 nömrəli Qərarı ilə təsdiq edilmiş "Professor-müəllim heyətinin tədris işi vaxtı norması";
5. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Elmi Şurasının müvafiq qərarları.

## II. Ümumi müddəalar

Elmi-pedaqoji təcrübə – ali təhsilin magistratura səviyyəsində tələbələrin pedaqoji səriştələrinin formalaşdırılması məqsədilə təşkil edilən təcrübədir. Elmi-pedaqoji təcrübəyə bütün nəzəri dərsləri müvəffəqiyyətlə bitirən magistrantlar buraxılırlar. Elmi-pedaqoji təcrübə ADMİU-da keçirilir və ixtisas təhsil proqramının, tədris planının tələblərinə uyğun olaraq magistrantın ixtisaslaşma üzrə əldə etdiyi nəzəri biliklərinin tədrisə hazırlıq və auditoriyada tətbiqi bacarıqlarını formalaşdırmaq və praktiki səriştələrini ölçmək məqsədi daşıyır. Elmi-pedaqoji təcrübə magistrantları ali təhsil müəssisələrində müstəqil, elmi-metodiki əsaslı tədris aparmağa hazırlayır.

## III. Elmi-pedaqoji təcrübənin məzmunu, məqsədi və nəticələri

### 3.1. Elmi-pedaqoji təcrübənin məzmunu və məqsədi

**3.1.1.** Elmi-pedaqoji təcrübənin məzmunu Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi tərəfindən ixtisasların təhsil proqramlarında təsdiq edilmiş təlim nəticələrinin mənimsənilməsi ilə əlaqəlidir və təqdim olunmuş mövzular üzrə mühazirə, seminar, təcrübi və s. dərsləri həyata keçirmək, habelə, müstəqil tapşırıqlar formalaşdırmaq, fənn silllabusunu tərtib etmək, fənnin təlim nəticələrinin əldə edilməsi üçün mövzu, sual, tapşırıqları və s. tərtib və təqdim etməkdən ibarətdir. Təcrübə praktiki bacarıqların və pedaqoji problemlərin həllinə yaradıcı yanaşmanın inkişaf etdirilməsinə, eləcə də nəzəri biliklərin möhkəmləndirilməsinə xidmət edir.

**3.1.2.** Elmi-pedaqoji təcrübənin əsas məqsədi magistrantın ali təhsil müəssisəsində müəllim kimi peşəkar bacarıqlarını inkişaf etdirmək, o cümlədən, tədris bacarıqlarına yiyələnməyi, metodoloji iş və tədqiqat aparmağı, psixoloji və pedaqoji biliklərin real həyatda təhsil mühitində tətbiqini təmin etməkdir. Bu səriştələr təlim profilinə uyğun olaraq fənlərin tədris-metodiki komplekslərinin pedaqoji dizaynı və innovativ təhsil texnologiyalarından istifadə edərək müxtəlif növ dərslərin keçirilməsinə hazırlığı təmin edir.

### 3.2. Magistrantın elmi-pedaqoji təcrübə nəticəsində əldə edəcəyi bilik və bacarıqlar:

**3.2.1.** İxtisasa aid akademik fənlərin proqramlarını hazırlamaq, dərs planlarını tərtib etmək, mühazirə və praktiki məşğələlər təşkil etmək, təlim materiallarını seçmək və hazırlamaq;

**3.2.2.** Tədris prosesini planlaşdırmaq, auditoriya ilə işləmək, təlim strategiyalarını seçmək, tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etmək;

**3.2.3.** Pedaqoji fəaliyyət zamanı fənnin məzmununu müasir elmi yeniliklərə əsaslanaraq formalaşdırmaq və tətbiq etmək bacarığını inkişaf etdirmək;

**3.2.4.** Müasir informasiya-kommunikasiya texnologiyalarından (ICT), tədris proqram təminatlarından (CAD/CAM/CAE, simulyasiya proqramları, virtual laboratoriyalar) səmərəli istifadə etmək;

**3.2.5.** Tədris fəaliyyətində açıq və səlis akademik kommunikasiya qurmaq, öz bilik və tədqiqat nəticələrini auditoriyaya aydın və əsaslandırılmış formada çatdırmaq;

**3.2.6.** Pedaqoji fəaliyyətin güclü və zəif tərəflərini müəyyən etmək, refleksiya aparmaq və gələcək fəaliyyət üçün inkişaf istiqamətlərini müəyyən etmək.

**3.3. Elmi-pedaqoji təcrübə zamanı magistrantın yerinə yetirməli olduğu tapşırıqlar:**

**3.3.1.** ADMİU-nun strukturu ilə tanış olmaq;

**3.3.2.** Kafedranın tədris, metodoloji və təlim işinin təşkili ilə tanış olmaq;

**3.3.3.** Kollokviumların və imtahanların təşkili prosesini öyrənmək;

**3.3.4.** Təhsil prosesini tənzimləyən normativ və hüquqi sənədləri öyrənmək;

**3.3.5.** Professor-müəllim heyətinin dərslərində iştirak etməklə mühazirə, seminar, əməli, təcrübi və s. dərslərini hazırlama və keçmə təcrübəsini öyrənmək;

**3.3.6.** Tədrisin elmi-metodoloji əsaslarını, o cümlədən elmi bilikləri strukturlaşdırmaq və səriştəli şəkildə tədris materialına çevirmək;

**3.3.7.** Dərslərin keçirilməsi zamanı təhsil məqsədlərini müəyyən etmək, dərsin növünü seçmək, tələbələrin təhsil və layihə əsaslı fəaliyyətlərinin təşkilinin müxtəlif formalarından istifadə etmək; təhsil fəaliyyətlərinin diaqnostikası, monitorinqi və effektivliyini qiymətləndirmək;

**3.3.8.** Tədris materialını strukturlaşdırmaq və onu müxtəlif üsullar, peşəkar ritorikanın xüsusiyyətləri, eləcə də tələbələrlə müəllimlər arasında effektiv kommunikasiya bacarıqlarından istifadə etməklə təqdim etmək;

**3.3.9.** Tədris edəcəyi mövzunun səmərəli öyrənmə metodlarını müəyyən etmək;

**3.3.10.** Tələbələrin fərdi psixoloji xüsusiyyətlərini nəzərə alaraq pedaqoji cəhətdən uyğun qərarlar qəbul etmək bacarıqlarını inkişaf etdirmək;

**3.3.11.** Təhsil məqsədlərinə çatmaq üçün əlverişli təlim mühiti yaratmaq və saxlamaq bacarıqlarını inkişaf etdirmək;

**3.3.12.** Tələbələrin marağını və öyrənməyə motivasiyasını inkişaf etdirmək;

**3.3.13.** Sorğu keçirməyi bacarmaq;

**3.3.14.** ADMİU-da pedaqoji fəaliyyətin müasir təhsil texnologiyalarını, metodlarını, və texnikalarını öyrənmək;

**3.3.15.** Təşkilati bacarıqları və komanda işini inkişaf etdirmək;

**3.3.16.** Təklif olunan fənn üzrə dərsin məzmununu fərdi planlaşdırmaq, tədris materiallarını və qeydlərini hazırlamaq;

**3.3.17.** Tələbələrin fəallığını artırmaq üçün müasir təlim metodlarından istifadə etməklə fənn üzrə dərslərin (mühazirələr, seminarlar, əməli və təcrübi dərslər) keçirilməsi və təcrübə rəhbəri ilə birlikdə tamamlanmış dərsi təhlil etmək;

**3.3.18.** Qiymətləndirmə materiallarını (testlər, imtahan sualları, tapşırıqlar və pedaqoji qiymətləndirmənin digər formalarını) hazırlamaq;

**3.3.19.** Elmi-pedaqoji təcrübənin yekunlarına dair hesabat hazırlamaq.

## IV. Elmi-pedaqoji təcrübənin keçirilməsi, müddəti və təşkilati məsələlər

**4.1**. Elmi-pedaqoji təcrübənin keçirilməsi ADMİU-nun ixtisas üzrə kadr hazırlığı aparan kafedralarında təşkil olunur, zəruri hallarda yaradıcılıq emalatxanaları, kitabxanalar, fondlar və rekvizitlərdən istifadə edilir.

**4.2.** Elmi-pedaqoji təcrübənin keçirilməsi rektorun əmri ilə rəsmiləşdirilir.

**4.3.** Magistr hazırlığı proqramına uyğun olaraq elmi-pedaqoji təcrübə təsdiq olunmuş tədris planlarına müvafiq olaraq 4 (dörd) həftə ərzində həyata keçirilir.

**4.3.1.** Həftələr üzrə təcrübənin aşağıdakı mərhələləri nəzərdə tutulur **(Əlavə 3):**

**I həftə** – Elmi-pedaqoji təcrübəyə hazırlıq, sənədlərlə və proqramla tanışlıq mərhələsi;

**II həftə** – Dərslərin müşahidəsi;

**III həftə** – Keçiriləcək dərslərin hazırlanması, birinci dərsin keçirilməsi;

**IV həftə** – İkinci dərsin keçirilməsi, hesabatın hazırlanması və Elmi-pedaqoji Təcrübə Komissiyasına təqdim edilməsi.

**4.4. Tədris şöbəsinin rəhbərinin hüquq və vəzifələri:**

- elmi-pedaqoji təcrübənin başlamasına ən azı bir həftə qalmış təcrübə qaydaları və onun keçiriləcəyi yer barədə kafedralarla birgə magistrantların məlumatlandırılmasına nəzarət etmək;
- elmi-pedaqoji təcrübə gündəliyinin təcrübə rəhbəri vasitəsilə elmi-pedaqoji təcrübənin başlanmasından ən azı bir həftə əvvəl magistranta təqdim edilməsinə nəzarət etmək;
- elmi-pedaqoji təcrübəyə məsul şəxs, kafedra müdirləri, dekanlarla birgə təcrübənin başlanğıc və yekun iclaslarını təşkil etmək;
- elmi-pedaqoji təcrübə müddətində təcrübənin təşkili və keçirilməsinə nəzarət etmək;
- elmi-pedaqoji təcrübə jurnalının **(Əlavə 1)** vaxtında yazılmasına nəzarət etmək;

- elmi-pedaqoji təcrübə yekun hesabatının keçirilməsi cədvəlinin kafedra müdirləri ilə birgə hazırlanmasında iştirak etmək və şəffaf keçirilməsinə nəzarət etmək;

- elmi-pedaqoji təcrübə komissiyalarının tərkibinin təsdiq edilməsi üçün hazırlanmış ümumi təqdimatı yoxlamaq və rektora təqdim etmək;

- elmi-pedaqoji təcrübəyə dair sənədləri yoxlamaq;

- iclaslarda iştirak etmək.

**4.5. Fakültə dekanının hüquq və vəzifələri:**

- elmi-pedaqoji təcrübə keçəcək magistrantlar haqqında rektora təqdimat hazırlamaq;

- elmi-pedaqoji təcrübənin başlanğıc və yekun iclaslarını təşkil etmək;

- elmi-pedaqoji təcrübə müddətində fakültələrin maddi-texniki bazasından magistrantlara tam istifadə imkanı yaratmaq;

- elmi-pedaqoji təcrübənin gedişi ilə maraqlanmaq və nəzarət etmək;

- Elmi-pedaqoji təcrübə Komissiyasının iş cədvəlini kafedra müdiri ilə birlikdə tərtib etmək;

- Elmi-pedaqoji təcrübə Komissiyasının işini cədvələ uyğun təşkil etmək;

- Elmi-pedaqoji təcrübə Komissiyasının yekun qiymətləndirmə sənədlərinə nəzarət etmək;

- Elmi-pedaqoji təcrübə Komissiyasının iclaslarında iştirak etmək.

**4.6. İxtisas üzrə buraxılış kafedrası müdirinin hüquq və vəzifələri:**

- elmi-pedaqoji təcrübə proqramının hazırlanması və təsdiqinə rəhbərlik etmək;

- magistrantlara elmi-pedaqoji təcrübə rəhbəri təyin etmək;

- tədris şöbəsinin müdiri və dekanla birgə elmi-pedaqoji təcrübənin başlanğıc və yekun iclaslarını təşkil etmək və iclaslarında iştirak etmək;

- fakültə dekanı və elmi-pedaqoji təcrübənin təşkilinə məsul şəxslə ilə birlikdə tərtib etmək;

- elmi-pedaqoji təcrübə jurnalının təcrübə rəhbəri tərəfindən düzgün və vaxtında yazılmasına nəzarət etmək;

- elmi-pedaqoji təcrübənin təşkili və keçirilməsinə məsul şəxs kimi nəzarət etmək və yaranmış çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti şəxslər qarşısında məsələ qaldırmaq;

- elmi-pedaqoji təcrübə hesabatının təqdim edilməsi üçün Elmi-pedaqoji Təcrübə Komissiyasının tərkibini müəyyən etmək və təqdimat hazırlamaq;

- Elmi-pedaqoji Təcrübə Komissiyasının işini cədvələ uyğun təşkil etmək;

- hesabat zamanı şəffaflığı təmin etmək;

- magistrantın hesabatının qəbul olunmasına dair təcrübə gündəliyi və jurnalında müvafiq qeydlərin aparılmasına nəzarət etmək;

- Elmi-pedaqoji təcrübəyə dair sənədlərin bir nüsxəsinin 5 il müddətində kafedrada saxlanmasını təmin etmək.

**4.7. Fənn üzrə müəllimin hüquq və vəzifələri:**

- dərs keçəcək magistrantın dərs planı ilə tanış olmaq;
- elmi-pedaqoji təcrübə rəhbəri ilə birgə dərsin müzakirəsində iştirak etmək;
- magistrantın müşahidə etdiyi dərslərin nəticələrinin təhlilində iştirak etmək;
- elmi-pedaqoji təcrübə rəhbəri ilə birgə bu qaydaların 9-cu bəndinə əsasən magistrantın keçdiyi dərsi ilkin qiymətləndirmək.

**4.8. Magistrantın hüquq və vəzifələri:**

- elmi-pedaqoji təcrübə müddətində müxtəlif dərslərdə iştirak etmək;
- elmi-pedaqoji təcrübə rəhbəri ilə birgə elmi-pedaqoji təcrübənin gündəliyini tərtib etmək;
- ADMİU-nun kitabxanası, studiya, fond və digər tədris-məlumat bazalarından istifadə etmək;
- tədris edəcəyi fənnin mövzularını seçmək;
- elmi-pedaqoji təcrübə müddətində mühazirə, seminar, təcrübi, əməli və s. dərslərin hazırlanması və keçirilməsi prosesini öyrənmək;
- dərslərin təşkilində müxtəlif innovativ vasitələrdən istifadə etmək;
- kollokviumlar, imtahanlar, layihələr və s. təşkili prosesini öyrənmək;
- innovativ və mütərəqqi təhsil texnologiyalarını tətbiq etmək;
- elmi-pedaqoji təcrübə gündəliyində **(Əlavə 2)** görülən işlərin gündəlik qeydlərini aparmaq;
- nəzərdə tutulan prosedur qaydalara tam əməl etmək;
- elmi-pedaqoji təcrübəsi üzrə hesabat yazmaq;
- elmi-pedaqoji təcrübənin sonunda yekun hesabatını təcrübə Komissiyasına təqdim etmək.

## V. Elmi-pedaqoji təcrübə rəhbərinin vəzifələri

**5.1.** ADMİU-nun ixtisas üzrə buraxılış kafedraları tərəfindən magistrantlara elmi-pedaqoji təcrübənin keçirilməsi üçün təcrübə rəhbəri tədris ilinin əvvəlində təyin edilir və rəhbərliyə ayrılmış saatlar müəllimin dəsr yükündə əks etdirilir. Bir qayda olaraq, elmi-pedaqoji təcrübənin rəhbəri kafedranın professor-müəllim heyəti arasından təyin olunur.

Elmi-pedaqoji təcrübənin rəhbəri təcrübə planının yerinə yetirilməsinə bilavasitə rəhbərlik və nəzarət edir.

**5.2. Elmi-pedaqoji təcrübə rəhbərinin vəzifələri:**

- elmi-pedaqoji təcrübənin proqramı əsasında təşkilati işləri həyata keçirmək;
- magistrantın aparacağı dərslərin cədvəllərinin hazırlanıb müvafiq bölmələrə çatıdırılmasını təşkil etmək;
- magistranta elmi-pedaqoji təcrübənin keçirilməsinin proqramı haqqında məlumat vermək;
- magistrantın aparacağı dərsdə və dərsin müzakirəsində iştirak etmək, bu Qaydaların 9.2-ci bəndinə uyğun qiymətləndirmək;
- elmi-pedaqoji təcrübənin məqsəd və vəzifələrinə uyğun yerinə yetiriləcək işlərə müvafiq olaraq magistrantın fərdi iş planının hazırlanmasında köməklik göstərərək öz tapşırıqlarını vermək;
- magistrantın elmi-pedaqoji təcrübəyə davamiyyətinin qeydiyyatını aparmaq;
- elmi-pedaqoji təcrübə prosesində sual doğuran məsələlərlə bağlı magistranta məsləhət və tövsiyələr vermək;
- elmi-pedaqoji təcrübə prosesində magistrantın müstəqil fəaliyyətini ilkin qiymətləndirmək;
- fənn müəllimi ilə birgə magistrantın keçdiyi dərsi ilkin qiymətləndirmək;
- hər bir magistrantın təcrübədə iştirakının nəticələrinə uyğun olaraq rəy vermək;
- elmi-pedaqoji təcrübə jurnalını tam və səliqəli şəkildə yekunlaşdırıb təhvil vermək;
- elmi-pedaqoji təcrübənin təkmilləşdirilməsi ilə bağlı təkliflər vermək;
- Elmi-pedaqoji təcrübə Komissiyanın işində iştirak etmək.

## VI. Elmi-pedaqoji təcrübənin proqramı

**6.1**. Elmi-pedaqoji təcrübənin proqramı hər bir ixtisas (ixtisaslaşmanın) Təhsil proqramında (standartında) ona verilən tələblərə uyğun olaraq ixtisas üzrə buraxılış kafedrasında hazırlanır, fakültə Metodiki Qrup və fakültə Elmi Şurasında müzakirə edildikdən sonra, ADMİU-nun Elmi-Metodiki Şurasına təqdim edilir və yekun olaraq ADMİU-nun Elmi Şurasında təsdiq olunur.

**6.2.** Elmi-pedaqoji təcrübənin məzmunu kafedranın tədqiqat və yaradıcılıq istiqamətləri, imkanları nəzərə alınmaqla, bu Qaydalara uyğun olaraq kafedra tərəfindən hazırlanmış proqramla müəyyən edilir.

**6.3.** Magistrantın müstəqil işi fənn üzrə tədris və metodiki sənədlərin hazırlanması ilə bağlı bütün növ tədris fəaliyyətlərini, o cümlədən fənn proqramının, mühazirə, seminar, əməli, təcrübi və fərdi dərs planının və məzmununun hazırlanmasını, tədris və metodiki ədəbiyyatın öyrənilməsini, təhsil prosesini tənzimləyən normativ və hüquqi sənədlərin öyrənilməsini, həmçinin, magistrantların auditoriyada və ya kafedrada olmasını tələb etməyən digər iş növlərini əhatə edir.

## VII. Magistrantın elmi-pedaqoji təcrübəsinin ümumi yekun hesabatı

Magistrantın elmi-pedaqoji təcrübəsinin ümumi yekun hesabatına daxildir:

- magistrant haqqında qısa məlumat;
- elmi-pedaqoji təcrübənin keçirildiyi yer;
- elmi-pedaqoji təcrübənin məqsədi;
- elmi-pedaqoji təcrübənin müddəti;
- elmi-pedaqoji təcrübə proqramına uyğun olaraq yerinə yetirilən iş və tapşırıqların təsnifatı;
- tədris etdiyi fənn üzrə hazırladığı (mühazirə, seminar, əməli və s.) materiallar (hər materialda istinad edilən mənbələri göstərməklə, müəllifin və nəşriyyatın adı, buraxılış ili və səhifələrin sayı);
- elmi-pedaqoji təcrübə zamanı əldə edilmiş səriştə və bacarıqlar haqqında təsviri məlumat;
- iştirak etdiyi dərslərin müzakirəsinə dair protokollar;
- elmi-pedaqoji təcrübə rəhbərinin rəyi.

*Qeyd: hesabat Word proqramında hazırlanmalı, PowePoint proqramında təqdim olunmalıdır.*

## VIII. Elmi-pedaqoji təcrübə Komissiyasının tərkibi və səlahiyyətləri

**8.1.** Elmi-pedaqoji təcrübə Komissiyasının tərkibi ixtisas kafedralarının mütəxəssislərindən (kafedra müdiri, müəllimlər) ibarət olur. Fakültə üzrə magistrantların ixtisaslarına uyğun kafedralardan sədr, üzvlər və katibdən ibarət komissiyanın tərkibi müəyyənləşdirilərək təqdimat yazılır (hər kafedrada bir komissiya yaradılır) və rektorun əmri ilə təsdiq olunur. Elmi-pedaqoji təcrübənin yekun qiymətləndirilməsi Elmi-pedaqoji təcrübə Komissiyası tərəfindən aparılır. Elmi-pedaqoji təcrübənin rəhbəri Elmi-pedaqoji təcrübə Komissiyasının üzvü kimi çıxış edə bilər.

**8.2.** Magistrant elmi-pedaqoji təcrübənin hesabatını müvafiq sənədlərlə birgə elmi-pedaqoji təcrübə rəhbərinin iştirakı ilə Elmi-pedaqoji təcrübə Komissiyasına təqdim edir.

**8.2.1.** Yekun hesabatda magistrant əldə olunan elmi-pedaqoji təcrübə haqqında çıxış etməli, özünün qazandığı yeni təcrübi bilikləri təqdim etməlidir.

**8.3.** Elmi-pedaqoji təcrübənin yekunları Elmi-pedaqoji təcrübə Komissiya tərəfindən bu Qaydaların 9.1. bölməsində göstərilən qiymətləndirmə meyarları əsasında 100 ballıq sistemlə qiymətləndirilir.

**8.3.1.** Elmi-pedaqoji təcrübə Komissiyasının bütün üzvləri meyarlara uyğun hər bir magistrant üçün qiymətləndirmə aparır. Qiymətləndirmə nəticələri toplanır və yekun orta bal müəyyən edilir.

**8.3.2.** Elmi-pedaqoji təcrübənin nəticələri magistrantlar tərəfindən hazırlanmış hesabat materiallarının keyfiyyəti və həcminə müqabil olaraq təcrübə proqramı və fərdi iş planının (tapşırığı) yerinə yetirilməsi səviyyəsi ilə müəyyən edilir.

**8.4.** Elmi-pedaqoji təcrübənin qiymətləndirilməsi üzrə magistrant Apellyasiya Komissiyasına müraciət edə bilməz.

**8.4.1.** Elmi-pedaqoji təcrübənin keçirilmə proseduru ilə bağlı magistrantın şikayət etmək hüququ var.

## IX. Magistrantın elmi-pedaqoji təcrübəsini qiymətləndirmə meyarları

**9.1.** Hər bir magistr elmi-pedaqoji təcrübə dövründə 2 (iki) dərs aparmalıdır.

| | | |
|---|---|---|
| **Elmi-pedaqoji təcrübənin qiymətləndirmə meyarları** | Magistrantın elmi-pedaqoji təcrübəsi 100 ballıq sistemlə qiymətləndirilir. | 0-100 |
| | Davamiyyətə görə:<br>Davamiyyətə görə verilən maksimum bal 10 baldır. Magistrant təcrübədə tam iştirak etdiyi halda ona 10 bal verilir. Təcrübə müddətində hər buraxılan 1 saata görə 0,5 bal çıxılır. Buraxılmış saatların miqdari təcrübəyə verilmiş saatların ümumi sayının 25% dən çox olmamalıdır. Bu, müəyyən olunmuş həddən yuxarı olduğu (25% və çox) halda tələbənin təcrübəsi qeyri-müvəffəq hesab olunur və Təcrübə Komissiyasına buraxılmır. | 10 bal |
| | Magistrantın sərbəst dərs aparmaq bacarığına görə | 40 bal |

<table>
<tr><td rowspan="2"></td><td colspan="3">Magistrantın təcrübənin sonunda hazırladığı yekun hesabatın Komissiya qarşısında təqdimatına görə</td><td>0-30 bal</td></tr>
<tr><td colspan="3">Magistrantın Komissiya qarşısında suallara cavaba görə</td><td>0-20 bal</td></tr>
<tr><td rowspan="6">Yekun qiymətləndirmə</td><td>91-100 bal</td><td>əla</td><td>A</td><td rowspan="6"></td></tr>
<tr><td>81-90</td><td>çox yaxşı</td><td>B</td></tr>
<tr><td>71-80</td><td>yaxşı</td><td>C</td></tr>
<tr><td>61-70</td><td>kafi</td><td>D</td></tr>
<tr><td>51-60</td><td>qənaətbəxş</td><td>E</td></tr>
<tr><td>51 baldan aşağı</td><td>qeyri-kafi</td><td>F</td></tr>
</table>

**9.2. Magistrant tərəfindən tədris edilən dərsin meyarları**

| **№** | **Qiymətləndirmə meyarları** | **Əla (5 bal)** | **Yaxşı (4 bal)** | **Orta (2-3 bal)** | **Zəif (0-1 bal)** |
|---|---|---|---|---|---|
| **1.** | Dərs planının tərtibi və dərsin məqsədinin düzgün müəyyənləşdirilməsi | | | | |
| **2.** | Mövzunun elmi-metodiki səviyyədə izahı | | | | |
| **3.** | Tədris metodlarının düzgün seçimi | | | | |
| **4.** | Təhsilalanlar ilə ünsiyyət bacarığı | | | | |
| **5.** | İnnovativ və interaktiv metodlardan, o cümlədən, müasir informasiya texnologiyalarından istifadə | | | | |
| **6.** | Vaxt bölgüsünün düzgün aparılması | | | | |
| **7.** | Tələbələrin fəallığının təmin edilməsi | | | | |
| **8.** | Elmi və ixtisas terminologiyasından düzgün istifadə | | | | |
| | **YEKUN BAL** | **0-40** | | | |

**36-40 bal** – Əla

**30-35 bal** – Yaxşı

**20-29 bal** – Orta

**0-19 bal** – Zəif

**QEYD:** *Magistrant tərəfindən tədris olunan hər bir dərs bu meyarlar əsasında qiymətləndirilir, iki dərsin qiymətləndirmə nəticələri toplanır və ikiyə bölünərək yekun bal müəyyən edilir.*

## X. Elmi-pedaqoji təcrübənin keçirilməsinə nəzarət

**10.1.** Elmi-pedaqoji təcrübənin təşkili və keçirilməsinə nəzarət Tədris şöbəsi, Ömürboyu təhsil, karyera və məzunlarla iş bölməsinin rəhbəri, fakültə dekanları və ixtisas kafedrasının müdiri tərəfindən həyata keçirilir. Aşkarlanmış qüsurlar haqqında qaydalara uyğun tədbirlər görülür və vaxtında tədris işləri üzrə prorektora yazılı məlumat verilir.

**10.2.** Elmi-pedaqoji təcrübə zamanı nizam-intizam qaydaları ADMİU-nun "Təhsilalanların universitetdaxili nizam-intizam qaydaları" ilə tənzimlənir. Qaydalar pozularsa, müvafiq tədbirlər görülür.

**10.3.** Hər hansı səbəbdən elmi-pedaqoji təcrübə keçməyən və ya qeyri-müvəffəq qiymət almış magistrant elmi-pedaqoji təcrübəni keçməmiş sayılır, onun akademik borcu yaranır. Elmi-pedaqoji təcrübədə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan magistrantın yenidən elmi-pedaqoji təcrübə keçmə vaxtı təhsil müəssisəsi tərəfindən müəyyən edilir. Elmi-pedaqoji təcrübədə iştirak etməyən və (və ya) elmi-pedaqoji təcrübədən qeyri-müvəffəq qiymət alan tələbənin təkrarən elmi-pedaqoji təcrübədə iştirakı ödənişlidir.

**10.3.1.** Magistrant üzrlü səbəbdən elmi-pedaqoji təcrübənin hesabat iclasında iştirak etmədikdə ona dekanlıq tərəfindən hesabatın verilməsi üçün imkan yaradılır.

**10.3.2.** Sağlamlıq durumu ilə əlaqədar elmi-pedaqoji təcrübənin keçirilməsi şəraiti nəzərə alınır.

## XI. Aşağıdakı hallarda magistrant elmi-pedaqoji təcrübəsini keçməmiş sayılır:

**11.1.** Magistrant elmi-pedaqoji təcrübdə iştirak etmədikdə və ya davamiyyəti 25% və çox olduqda;

- Magistrant müvafiq proqramı yerinə yetirmədikdə;
- Magistrant öz müstəqil dərslərinin cəminə görə 20 baldan az topladıqda;
- Elmi-pedaqoji təcrübənin yekun hesabatı qeyri-müvəffəq qiymətləndirildikdə.

**11.2.** Magistrantın elmi-pedaqoji təcrübədə iştirak etməməsi və ya müəyyən olunmuş normativləri yerinə yetirməməsi elmi-pedaqoji təcrübənin sənədləri əsasında təsdiqlənməlidir.

**Hazırladı:**

**Tədris işləri üzrə prorektor ____________ fil.ü.f.d., dos. Nigar Rüstəmova**

***ADMİU Elmi Şurasının Təhsil və islahat komissiyası ilə razılaşdırıldı.***

Əlavə 1

AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ

İNCƏSƏNƏT UNİVERSİTETİ

PUBLİK HÜQUQİ ŞƏXSİ

Fakültə______________________________

Təhsil ili ______Semestr____________

İxtisas_______________________________

İxtisaslaşma__________________________

Təhsilalma forması_______________

Rəhbər______________________________

# MAGİSTR ELMİ-PEDAQOJİ TƏCRÜBƏ JURNALI

Elmi-pedaqoji təcrübə keçirilən kafedra_______________________________________

Başlanması________________20___il

Sonu______________________20___il

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏ JURNALINDA QEYDİYYATIN APARILMASINA QOYULAN TƏLƏBLƏR

1. Elmi-pedaqoji təcrübə jurnalı kafedradan təcrübə rəhbəri tərəfindən Tədris şöbəsindən götürülməli və elmi-pedaqoji təcrübə başa çatdıqdan sonra kafedraya təhvil verilməlidir.

2. Elmi-pedaqoji təcrübə jurnalının düzgün və vaxtlı-vaxtında doldurulması üçün elmi-pedaqoji təcrübə rəhbəri məsuldur.

3. Elmi-pedaqoji təcrübə rəhbəri gündəlik olaraq verdiyi fərdi tapşırığı jurnalda qeyd etməlidir.

4. Elmi-pedaqoji təcrübə jurnalında qeydiyyat səliqəli və aydın xətlə yazılmalıdır.

5. Elmi-pedaqoji təcrübə rəhbəri kafedra müdiri ilə razılaşdırılmış işçi proqramı və təqvim müddətləri əsasında jurnalda qeydiyyat aparır.

6. Elmi-pedaqoji təcrübə jurnalında düzəliş və pozmaya yol verilməməlidir.

7. Elmi-pedaqoji təcrübə jurnalındakı bütün qeydlər eyni rəngli qələmlə aparılmalıdır.

8. Əgər mövcud təlimat pozularsa, dekanlıqda bununla bağlı yazılı qeyd aparılmalı, elmi-pedaqoji təcrübə rəhbərindən yazılı izahat tələb edilməlidir.

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏ RƏHBƏRİNİN NƏZƏRİNƏ

- Elmi-pedaqoji təcrübə rəhbəri təcrübənin keçirilməsinə dair qaydaları magistranta izah etməlidir.
- Elmi-pedaqoji təcrübə rəhbəri magistrantın davamiyyəti barədə qeydləri vaxtında etməli və magistrant elmi-pedaqoji təcrübədə iştirak etmədiyi tarixdə jurnalda həmin gün üçün "q/b" qeyd olunmalıdır.
- Magistrantın əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etməsinə cavabdehlik daşıyır.
- Elmi-pedaqoji təcrübə rəhbəri magistrantın fərdi tapşırıqlarının və təcrübə mövzularının müəyyənləşdirilməsində iştirak edir.
- Elmi-pedaqoji təcrübə rəhbəri magistrantın fərdi tapşırıqlarının yerinə yetirilməsində metodiki yardım göstərir və ona lazım olan materialların toplanmasında kömək edir.
- Elmi-pedaqoji təcrübə rəhbəri magistrant tərəfindən elmi-pedaqoji təcrübənin yerinə yetirilməsi barədə hesabatın tərtib edilməsində metodiki yardım göstərir.

- Elmi-pedaqoji təcrübənin hesabatı təcrübə təşkil olunan ixtisas kafedrasında yaradılan Elmi-pedaqoji təcrübə Komissiya qarşısında təqdim olunur və 100 ballıq kredit sisteminə uyğun olaraq qiymətləndirilir.

- Təcrübə hesabatının təqdimatı zamanı qiymətləndirilmə aşağıdakı meyarlar üzrə aparılır:

  - Davamiyyətə görə - 0-10 bal
  - Sərbəst dərslərin keçirilməsinə görə - 0-40 bal
  - Komissiya qarşısında hesabatın təqdimatına görə - 0-30 bal
  - Komissiya qarşısında suallara cavaba görə - 0-20 bal

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏ RƏHBƏRİNİN YERİNƏ YETİRDİYİ SAATLARIN MİQDARI HAQQINDA MƏLUMAT

| **Təcrübə rəhbərinin S.A.A.** | **Vəzifəsi** | **Elmi dərəcəsi** | **Yerinə yetirilən saatın miqdarı** |
|---|---|---|---|
| | | | |

Elmi-pedaqoji təcrübə rəhbərinin imzası ______________________________
(soyadı, adı)

Kafedra müdirinin imzası ______________________________
(soyadı, adı)

**QEYD:** *Məlumat elmi-pedaqoji təcrübə rəhbəri tərəfindən yazılır və kafedra müdiri tərəfindən təsdiqlənir.*

Elmi-pedaqoji təcrübənin müddəti______________________________həftə

Təcrübənin vaxtı______________________________20__il

Kafedranın adı______________________________

Magistrantların gəlməsi və getməsi haqqında kafedranın qeydi

Magistrantlar gəldi______________________________________________20__ il
(kafedra müdirinin imzası, soyadı, adı)

Magistrantlar getdi______________________________________________20__ il
(kafedra müdirinin imzası, soyadı, adı)

Möhür yeri

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏ RƏHBƏRİNİN İŞ CƏDVƏLİ

| Elmi-pedaqoji təcrübə rəhbəri | HƏFTƏNİN GÜNLƏRİ | | | | | | | | | | İmza |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | I | | II | | III | | IV | | V | | |
| | saat | saat | saat | saat | saat | saat | saat | saat | saat | saat | |
| | | | | | | | | | | | |

QEYD: *Cədvəl doldurulub Tədris şöbəsinə təqdim olunmalıdır (surəti).*

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏ ÜZRƏ FƏRDİ TAPŞIRIQLARIN MÖVZULARI

**Magistrantın S.A.A.** ______________________________________________

| № | Mövzunun adı |
|---|---|
| 1. | |
| 2. | |
| 3. | |
| 4. | |
| 5. | |

| | |
|---|---|
| 6. | |
| 7. | |
| 8. | |
| 9. | |
| 10. | |
| 11. | |
| 12. | |
| 13. | |
| 14. | |
| 15. | |
| 16. | |
| 17. | |
| 18. | |
| 19. | |
| 20. | |

**ELMİ-PEDAQOJİ TƏCRÜBƏ RƏHBƏRİ**

________________________________________

(adı, soyadı)

| Tarix | Məşğələnin məzmunu | Saatların miqdarı | İmza |
|---|---|---|---|
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

**MAGİSTRANTLARIN ELMİ-PEDAQOJİ TƏCRÜBƏYƏ DAVAMİYYƏTİ HAQQINDA QEYD**

| № | Magistrantların S.A.A. | Tarix | | | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | | | | | | | | | | | | | | | |
| 2. | | | | | | | | | | | | | | | | | | | | | |
| 3. | | | | | | | | | | | | | | | | | | | | | |
| 4. | | | | | | | | | | | | | | | | | | | | | |
| 5. | | | | | | | | | | | | | | | | | | | | | |
| 6. | | | | | | | | | | | | | | | | | | | | | |
| 7. | | | | | | | | | | | | | | | | | | | | | |
| 8. | | | | | | | | | | | | | | | | | | | | | |
| 9. | | | | | | | | | | | | | | | | | | | | | |
| 10. | | | | | | | | | | | | | | | | | | | | | |

QEYD: *Magistrantların təcrübəyə gəlməməsi "q/b" işarəsi ilə qeyd olunmalıdır.*

Kafedra tərəfindən təcrübə rəhbəri ____________________________________

(adı, atasının adı, soyadı) (imza)

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏNİN QİYMƏTLƏNDİRİLMƏSİ

| № | Magistrantın S.A.A. | Meyarlara görə ballar | | | | Yekun qiymət | |
|---|---|---|---|---|---|---|---|
| | | Davamiyyətə görə verilən bal (0-10 bal) | Sərbəst dərslərin keçirilməsinə görə verilən bal (0-40 bal) | Komissiya qarşısında hesabatın təqdimatına görə verilən bal (0-30 bal) | Komissiya qarşısında suallara cavaba görə verilən bal (0-20 bal) | rəqəmlə | hərflə |
| 1. | | | | | | | |
| 2. | | | | | | | |
| 3. | | | | | | | |
| 4. | | | | | | | |
| 5. | | | | | | | |
| 6. | | | | | | | |
| 7. | | | | | | | |
| 8. | | | | | | | |
| 9. | | | | | | | |
| 10. | | | | | | | |

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏ RƏHBƏRİNİN HESABATI

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________________________

_______________________________ ____________

**adı, soyadı** **imza**

**Hesabat kafedra iclasında müzakirə olunmuşdur.**

**Protokol №_______** **_____ ______________20____il**

## KAFEDRA MÜDİRİNİN QEYDİ VƏ RƏYİ

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

**Kafedra müdiri** ______________________________________________

adı, soyadı

**Vəzifəsi**__________________________________**imza**______________________

**Möhür yeri:**

Əlavə 2

# AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ PUBLİK HÜQUQİ ŞƏXSİ

**Fakültə:** ________________________________

**Kafedra:** ________________________________

## MAGİSTRATURA SƏVİYYƏSİ

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏNİN GÜNDƏLİYİ

BAKI - 20__

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏNİN KEÇİRİLMƏSİNƏ DAİR ƏSAS QAYDALAR

1. Elmi-pedaqoji təcrübənin məqsədi magistratura səviyyəsində təhsilalanların Universitetin auditoriyalarında aldıqları akademik biliklərinin təcrübi vərdişlərlə möhkəmləndirilməsindən ibarətdir.

2. Magistratura səviyyəsində təhsilanlar elmi-pedaqoji təcrübə müddətində fərdi iş planında nəzərdə tutulmuş bütün tapşırıqları yerinə yetirməli və hər gün yerinə yetirdikləri işlər barədə qısa məlumatları gündəlikdə qeyd etməlidirlər. Bu məlumatlar elmi-pedaqoji təcrübə rəhbəri tərəfindən imzalanmalıdır.

3. Elmi-pedaqoji təcrübə müddətində magistrant ixtisas fənləri üzrə təcrübəli pedaqoqların mühazirə, seminar, məşğələ və s. dərslərində iştirak edir, metodik materialların tərtib olunması ilə tanış olur.

4. Elmi-pedaqoji təcrübənin rəhbəri magistranta sınaq dərsinin, mühazirə mətninin hazırlanmasında kömək edir.

5. Gündəlikdə magistrant tərəfindən hər gün görülən işlərlə yanaşı, elmi-pedaqoji təcrübənin ətraflı yekun hesabatı yazılır.

6. Gündəlik, mühazirə, seminar, əməli və s. dərslər bitdikdən sonra elmi-pedaqoji təcrübə rəhbərinə təqdim edilir.

7. Elmi-pedaqoji təcrübənin nəticələri barədə ixtisas kafedrasında yaradılan Elmi-pedaqoji təcrübə Komissiyası qarşısında hesabat təqdim olunur və 100 ballıq kredit sisteminə uyğun olaraq qiymətləndirilir.

8. Magistratura səviyyəsində elmi-pedaqoji təcrübə üzrə təcrübənin qiymətləndirilməsi:

- Davamiyyətə görə - 0-10 bal
- Sərbəst dərslərin keçirilməsinə görə - 0-40 bal
- Komissiya qarşısında hesabatın təqdimatına görə - 0-30 bal
- Komissiya qarşısında suallara cavaba görə - 0-20 bal

## TƏCRÜBƏ VƏRƏQƏSİ

Magistrant: ____________________________________________

(adı, atasının adı,soyadı)

İxtisas: ____________________________________________

İxtisaslaşma: ____________________________________________

Təhsil ili: ________________ Qrup:______________

İxtisas kafedrası: ____________________________________________

M.Y. Fakültə dekanı_______________
(imza)

Kafedra müdiri_______________
(imza)

Elmi-pedaqoji təcrübənin rəhbəri: ______________________________

(adı, atasının adı,soyadı)

Elmi-pedaqoji təcrübənin başlanması: ____ ________________ 20__

Elmi-pedaqoji təcrübənin bitməsi: ____ _________________ 20__

## ELMİ-PEDAQOJİ TƏCRÜBƏYƏ DAİR FƏRDİ TAPŞIRIQLAR

| S/№ | Tarix | GÖRÜLƏN İŞLƏRİN QISA MƏZMUNU | Təcrübə rəhbərinin qeydi və imzası |
|---|---|---|---|
| 1. | | | |
| 2. | | | |
| 3. | | | |
| 4. | | | |

| S/№ | Tarix | GÖRÜLƏN İŞLƏRİN QISA MƏZMUNU | Təcrübə rəhbərinin qeydi və imzası |
|---|---|---|---|
| 5. | | | |
| 6. | | | |
| 7. | | | |
| 8. | | | |

| S/№ | Tarix | GÖRÜLƏN İŞLƏRİN QISA MƏZMUNU | Təcrübə rəhbərinin qeydi və imzası |
|---|---|---|---|
| 9. | | | |
| 10. | | | |
| 11. | | | |
| 12. | | | |

| S/№ | Tarix | GÖRÜLƏN İŞLƏRİN QISA MƏZMUNU | Təcrübə rəhbərinin qeydi və imzası |
|---|---|---|---|
| 13. | | | |
| 14. | | | |
| 15. | | | |
| 16. | | | |

| S/№ | Tarix | GÖRÜLƏN İŞLƏRİN QISA MƏZMUNU | Təcrübə rəhbərinin qeydi və imzası |
|---|---|---|---|
| 17. | | | |
| 18. | | | |
| 19. | | | |
| 20. | | | |

**Qeyd:** *Görülən işlərin qısa məzmunu təcrübə rəhbəri tərəfindən imzalanır.*

## Magistrantın elmi-pedaqoji təcrübəsinin hesabatı

Magistrant: ______________________
(imza)

**Təcrübə rəhbərinin rəyi**

________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________
________________________________________________________________________________

**Təcrübənin qiymətləndirilməsi**______________________________

**Təcrübə rəhbəri:**

____________________________________________________________

**İmza:** _________________ **Tarix**____________________

Əlavə 3

**MAGİSTRATURA ÜZRƏ ELMİ-PEDAQOJİ TƏCRÜBƏNİN 4 HƏFTƏLİK TƏQVİM PLANI**

Universitet: ______________________________

Fakültə / Kafedra: ______________________________

İxtisas: ______________________________

Magistrant: ______________________________

Təcrübə rəhbəri: ______________________________

Təcrübə müddəti: 4 həftə

Təcrübə dövrü: ……20__ – //……20__

**1-ci həftə — Elmi-pedaqoji təcrübəyə hazırlıq, sənədlərlə və proqramla tanışlıq mərhələsi**

| № | Gün | Fəaliyyət | Məsul şəxs | Qeyd |
|---|---|---|---|---|
| **1.** | B.e. | Elmi-pedaqoji təcrübə rəhbəri ilə görüş, təcrübə proqramının izah edilməsi | Elmi-pedaqoji təcrübə rəhbəri | |
| **2.** | Ç.a. | Elmi-pedaqoji təcrübə gündəliyinin və formalarının verilməsi, dərslərdə qeydlərin aparılması barədə məlumatlandırma | Magistrant, Elmi-pedaqoji təcrübə rəhbəri | |
| **3.** | Ç. | Fənnin sillabusu və dərs planı ilə tanışlıq | Elmi-pedaqoji təcrübə rəhbəri, magistrant | |
| **4.** | C.a. | Seminar, mühazirə və s. dərslər haqqında məlumatın verilməsi | Magistrant, Elmi- | |

| | | | | |
|---|---|---|---|---|
| | | | pedaqoji təcrübə rəhbəri | |
| **5.** | C. | Fərdi təcrübə planının hazırlanması və təsdiqi | Magistrant, Elmi-pedaqoji təcrübə rəhbəri | |

**2-ci həftə — Dərslərin müşahidəsi**

| № | Gün | Fəaliyyət | Məsul şəxs | Qeyd |
|---|---|---|---|---|
| **1.** | B.e. | Dərsin müşahidəsi (mühazirə, seminar, təcrübi, əməli, fərdi) | Fənn müəllimi | Elmi-pedaqoji təcrübə rəhbəri jurnalda və magistrantın gündəliyində qeyd aparmalı |
| **2.** | Ç.a. | Dərsin müşahidəsi (mühazirə, əməli, təcrübi, fərdi və s.) | Fənn müəllimi | Elmi-pedaqoji təcrübə rəhbəri jurnalda qeyd aparmalı |
| **3.** | Ç. | Dərsin müşahidəsi (mühazirə, əməli, təcrübi, fərdi və s.) | Fənn müəllimi | Elmi-pedaqoji təcrübə rəhbəri jurnalda qeyd aparmalı |
| **4.** | C.a. | Müşahidə nəticələrinin təhlili | Fənn müəllimi | Elmi-pedaqoji təcrübə rəhbəri jurnalda qeyd aparmalı |
| **5.** | C. | Təcrübə rəhbəri ilə müzakirəsi | Elmi-pedaqoji təcrübə rəhbəri, magistrant | Elmi-pedaqoji təcrübə rəhbəri jurnalda qeyd aparmalı |

**3-cü həftə — Keçiriləcək dərslərin hazırlanması, birinci dərsin keçirilməsi**

| № | Gün | Fəaliyyət | Məsul şəxs | Qeyd |
|---|---|---|---|---|
| 1. | B.e. | Dərs növlərinin elmi-pedaqoji təcrübə rəhbəri ilə birgə müəyyən edilməsi. Birinci dərs üçün dərsin planın və d. tədris materiallarının (konspekt, tapşırıq və s.-lərin) hazırlanması | Magistrant, Elmi-pedaqoji təcrübə rəhbəri | |
| 2. | Ç.a. | Dərsə hazırlıq (dərsin növündən və məqsədindən asılı olaraq vizual təqdimatların hazırlanması) | Magistrant | Elmi-pedaqoji təcrübə rəhbərinin jurnalda qeydləri |
| 3. | Ç. | Birinci dərs - Magistrant tərəfindən aparılması | Magistrant | |
| 4. | C.a. | Özünüqiymətləndirmə, dərsin təhlili, dərsin qiymətləndirilməsi | Magistrant, Təcrübə rəhbəri, fənn müəllimi | Elmi-pedaqoji təcrübə rəhbərinin rəyi |
| 5. | C. | İkinci dərs üçün planın hazırlanması | Magistrant | |

**4-cü həftə — İkinci dərsin keçirilməsi, hesabatın hazırlanması və Elmi-pedaqoji Təcrübə Komissiyasına təqdim edilməsi**

| № | Gün | Fəaliyyət | Məsul şəxs | Qeyd |
|---|---|---|---|---|
| 1. | B.e. | Dərsə hazırlıq | Magistrant | |
| 2. | Ç.a. | İkinci dərsin keçirilməsi | Magistrant | |
| 3. | Ç. | Özünüqiymətləndirmə, dərsin təhlili, dərsin qiymətləndirilməsi | Magistrant, elmi-pedaqoji təcrübə rəhbəri, fənn müəllimi | |

| | | | | |
|---|---|---|---|---|
| **4.** | C.a. | Yekun hesabatın hazırlanması | Magistrant | |
| **5.** | C. | Təcrübə hesabatının təqdimi və Elmi-pedaqoji təcrübə Komissiyası tərəfindən qiymətləndirilməsi | Magistrant, Elmi-pedaqoji təcrübə Komissiyası | |